# Qax: Kənd təsərrüfatı iqtisadiyyatın mühüm sahəsidir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə kənd təsərrüfatının inkişafından, onun ölkə iqtisadiyyatının aparıcı sahəsi olmasından da geniş danışılmış və qarşıya çox mühüm vəzifələr qoyulmuşdur. Dövlətimizin başçısı öz nitqində qeyri-neft sənayesinin ilin arxada qalan doqquz ayında 15 faiz artmasını və bunun dünya miqyasında rekord göstərici olduğunu bildirməklə, kənd təsərrüfatının inkişafının prioritet sahə kimi müəyyən edildiyini vurğulamış, onu mühüm vəzifə kimi qarşıya qoymuşdur. Bölgə müxbirimiz* ***Qax Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Məhəmməd Fətəliyevdən*** *burada həmin sahədə əldə olunan nəticələr, qarşıda duran vəzifələr barədə müsahibə almışdır. Direktor demişdir:*



—Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində qeyri-neft sektoru, o cümlədən kənd təsərrüfatı, onun ənənəvi sahələri olan fındıqçılıq, tütünçülük və baramaçılıq ölkəmizin digər müvafiq bölgələrində olduğu kimi rayonumuzda da sürətlə inkişaf etməkdədir. Xüsusilə rayonumuzun əhalisinin əsas gəlir mənbəyi olan fındıqçılığın, baramaçılığın, tütünçülüyün inkişafı üçün möhkəm zəmin yaradılmaqdadır.

Mütəxəssislərimiz tərəfindən fındıqçılıq, tütünçülük və baramaçılığın inkişaf etdirilməsi ilə əlaqədar yazılı təlimatlar hazırlanaraq inzibati ərazi nümayəndəliklərinin köməkliyi ilə yerlərdə kənd əməkçilərinə çatdırılmışdır. Bundan başqa, mərkəzimizin mütəxəssislərinin və nazirliyin adları aqrar sahə ilə bağlı qurumlarının nümayəndələrinin iştirakı ilə yerlərdə fermerlər və kənd əməkçiləri ilə görüşlər keçirilir. Onların problemləri öyrənilir və tələbləri qeydə alınır, həmin tələb və təkliflər nazirliyə göndərilir.

Mərkəzin direktoru söhbətində onu da bildirdi ki, 2019-cu ilin məhsulu üçün 13815 hektar sahədə payızlıq taxıl əkilmişdir. Bunun da 10934 hektarı buğda, 2881 hektarı isə arpa olmuşdur. Sahələrdə aparılan aqrotexniki qulluq işlərinin, yüksək reproduksiyalı intensiv toxumlardan istifadə olunmasının, alaq otlarına, xəstəlik və zərərvericilərə qarşı vaxtında və düzgün aparılan mübarizə tədbirlərinin, mineral gübrələrdən səmərəli istifadənin nəticəsində bol məhsul əldə olunmuşdur. Rayon üzrə arpa sahələrindən 26.1, buğda sahələrindən isə 30.7 sentner məhsul istehsal edilmişdir. Digər yazlıq əkinlərin sahəsi 4685 hektar olmuşdur.

2020-ci ilin məhsulu üçün isə 14 min hektar sahədə payızlıq dənli bitkilərin səpilməsi proqnozlaşdırılmışdır. Bunun da 11 min hektarını buğda, 3 min hektarını arpa təşkil edir. Hələ yay vaxtında sahələrdə keyfiyyətli şum çıxarılmış, digər aqrotexniki işlər və hazırlıqlar da unudulmamışdır. Artıq neçə vaxtdır payızlıq səpinə başlanmışdır. İşin lazımi səviyyədə təşkilinə, gələn ilin daha çox məhsulu üçün indidən etibarlı bünövrə qoyulmasına xüsusi diqqət yetirilir.

Tütünçülük tarixən rayonun iqtisadiyyatında mühüm yer tutmuşdur. Dövlətimiz tərəfindən bu sahəyə son illər göstərilən qayğı rayonda tütünçülüyün yenidən dirçəlməsinə səbəb olmuşdur. 2019-cu ildə 491 hektar sahədə tütün əkini aparılmışdır. Bunun da 405.6 hektarını "virciniya" sortu təşkil edir. Sahələrdə məhsul boldur və istehsal prosesi öz ahəngi ilə davam edir. İşin gedişi göstərir ki, qaxlı tütünçülər proqnoz tapşırığı layiqincə yerinə yetirəcəkdir.

2019-cu il ərzində 29823.7 kiloqram yaş barama istehsal olunaraq təhvil verilmişdir. Baramaçılığa göstərilən diqqətin nəticəsidir ki, kümdarlara təhvil verdikləri məhsula görə ümumilikdə 134270 manat subsidiya hesablanıb kart hesabları vasitəsilə ödənilmişdir.



Bağçılıq, xüsusən də fındıqçılıq rayonun iqtisadiyyatında mühüm yer tutur. Rayonda bu sahənin inkişafına da xüsusi diqqət yetirilir. Hər il yeni bağlar salınır, yaşlı bağlarda seyrəkliklər aradan qaldırılır, aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə aparılmasına xüsusi diqqət yetirilir. Rayon üzrə 2019-cu ildə 165.5 hektar sahədə fındıq bağı salınmış və ümumi fındıq bağlarının sahəsi 10084.5 hektar olmuşdur. Bu il də rayonda bol məhsul əldə edilmişdir.

Rayonda 1720 hektarda dən üçün qarğıdalı əkilmişdir. Aqrotexniki qulluq işlərinin vaxtında və düzgün aparılmasının nəticəsidir ki, sahələrdə bol məhsul yetişmişdir. 2019-cu ilin məhsulu üçün 321 hektar sahədə kartof, 191.5 hektar sahədə bostan bitkiləri, 392 hektar sahədə tərəvəz, 103.5 hektar sahədə isə lobya əkini aparılmışdır. Yazlıq əkinlərin məhsullarının yığımı uğurla başa çatmışdır.



Qaxda heyvandarlığın inkişafına da diqqət və qayğı ön plandadır. İribuynuzlu, xırdabuynuzlu mal-qaranın sayı əvvəlki illərdəkinə nisbətən xeyli artmış, heyvandarlıq məhsulları istehsalı çoxalmışdır. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirləri zootexniki qaydalara uyğun aparılır. Rayonda heyvandarlığın inkişaf etdirilməsində baytarlıq xidmətinin də lazımi səviyyədə təşkili xüsusi önəm daşıyır. Bu sahənin mütəxəssisləri də heyvandarlıqla məşğul olan fermerlərə, eyni zamanda mal-qara, qoyun-quzu saxlayan kənd əməkçiləri ilə müntəzəm əlaqə saxlayır, bu və ya digər xəstəliklərin yaranması üçün baytarlıq xidmətlərinin vaxtlı-vaxtında və keyfiyyətlə aparılmasını təmin edirlər.

**Rasim AMANOV,**
**"Respublika".**

**Respublika.- 2019.- 1 noyabr.- S.6.**